# Şamaxı: sosial-iqtisadi həyatın bütün sahələrində inkişaf fərəh doğurur

**Dünyanın söz xəzinəsinə Əfzələddin Xaqani Şirvani, Fələki Şirvani, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi və başqa onlarla dühalar bəxş etmiş qədim, müqəddəs yurd yerlərimizdən olan Şamaxı çox-çox xaqanların, ulu şahların cahanşümül istilalarına məruz qalsa da, tarixin sərt gərdişlərinə sinə gərdi, duruş gətirdi, yaşadı.**

**Bu gün söz-sənət məbədi olan ulu yurd həyatının intibah, dirçəliş, yüksəliş dövrünü yaşayır - desək, səhv etmərik.**

**Xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində hələ sovetlər dönəmində Azərbaycana rəhbərlik edən dahi şəxsiyyətin səyi ilə Şamaxı o zamankı bölgələrin içərisində sayılıb-seçilən rayonlardan idi. Təkcə bir faktı demək kifayətdir ki, 1969-1980-ci illərdə Şamaxı ölkəmizin ən böyük üzüm, taxıl, heyvandarlıq mərkəzinə çevrilmişdir. 13 şərab zavodunun bir rayonda fəaliyyət göstərməsinin nə demək olduğunun məntiqini açmaq o qədər də çətin deyildi. Təəssüflər olsun ki, məlum hadisələr bütün sahələrdə olduğu kimi, Şamaxıda da həyat ahəngini pozdu.**

**Xalqımızın əbədiyaşar lideri Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı bütövlükdə Azərbaycanı özünə qaytardı. İqdisadiyyata, mədəniyyətə, tarixə vurulan yaralar sağalmağa başladı. Heydər Əliyev kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin düşünülmüş, xalqı gələcəyə aparan iqtisadi strategiyası bütün bölgələrimiz kimi, ulu Şirvanın paytaxtına — Şamaxıya da yeni nəfəs, yeni həyat gətirdi.**

Bu yaxınlarda rayon icra hakimiyyətində kecirilən geniş şura iclasında Şamaxının son doqquz aydakı sosial-iqtisadi inkişafına nəzər salınmış, ilin qalan dövrü üçün vəzifələr müəyyənləşdirilmişdir. Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev geniş, əhatəli məruzəsində qeyd etmişdir ki, qədim Şamaxının tarixinə 2 oktyabr 2017-ci il qızıl hərflərlə yazıldı. Belə ki, həmin gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva rayonumuza tarixi səfər etdilər. Səfər çərçivəsində cənab Prezidentin iştirakı ilə bir sıra obyektlərin, Şamaxı-Çöl Göylər-Padar, Pirqulu-Dəmirçi avtomobil yollarının açılışı oldu, Şamaxı şəhərinin içməli su təchizatı layihəsinə, Safari parkına baxış keçirildi, “AzGranata” MMC-yə məxsus üzüm bağları ilə tanışlıq oldu. Ölkə rəhbəri qədim Dəmirçi kəndində bərpa edilmiş məscidi ziyarət etdi və yeni yaradılmış turizm kompleksində görülmüş işlərlə tanış oldu, dəyərli məsləhətlər verdi.

İlkin hesablamalar əsasında rayonda 163 milyon manat dəyərində ümumi məhsul buraxılışı olmuşdur. Qeyd olunan müddət ərzində rayonda sənaye məhsulunun həcmi 3,9 milyon manat olmuşdur. Həmçinin doqquz ayda əsas kapitala yönəldilən investisiyaların həcmi 60,1 milyon manat, tikinti-quraşdırma işlərinin həcmi 55,0 milyon manat təşkil etmişdir.




Rayonda əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması məqsədilə məqsədyönlü işlər həyata keçirilmişdir.

Yeni iş yerlərinə göndərişlər 2017-ci ilin doqquz ayında da davam etdirilmiş, ötən dövr ərzində 2016-cı ildə işə göndərilənlərdən 215 nəfərin əmək müqavilələrinin bir il müddətinə uzadılması təmin edilmiş, əlavə olaraq 357 nəfər işaxtaran vətəndaşa iş yerlərinə göndərişlər verilmiş, onların da əmək müqavilələrinin bağlanılması prosesi başa çatmışdır.

2017-ci ilin doqquz ayında rayon üzrə 2165 daimi iş yeri açılmışdır. 2003-cü ildən indiyə kimi rayon üzrə 18284 iş yeri yaradılmışdır ki, bunun da 15613 daimi iş yeridir.

Rayon iqtisadiyyatında kənd təsərrüfatı sahəsi əsas yer tutur. Görülən tədbirlər nəticəsində bu ilin doqquz ayı ərzində bu sahədə 44 mln. manatlıq məhsul istehsal edilmişdir ki, bunun da 53,2 faizi heyvandarlıq məhsullarının payına düşür. 2017-ci ilin məhsulu üçün olan əkinlər rayonda 24183,1 hektar olmuşdur ki, bunun da 22825,1 hektarı strateji məhsul olan dənlilərin payına düşür. Hazırda rayonda taxıl biçini kampaniyası başa çatmışdır. Faktiki olaraq, 14270 hektar buğda əkini sahəsindən 27668,7 ton buğda, 8471 hektar arpa əkini sahəsindən isə 15737,9 ton arpa istehsal olunmuşdur. Hər hektara orta məhsuldarlıq 19,1 sentner olmuşdur.

Ölkəmizdə ərzaq bolluğunu yaratmaq və rayona investisiyanın cəlbi məqsədi ilə yaradılmış aqroparklarda ötən müddət ərzində xeyli işlər görülmüşdür. “Kürdəmir Süd Emalı Zavodu” MMC-də 2 min başlıq maldarlıq kompleksinin və 80 yerlik otelin tikintisi davam etdirilir. Müəssisədə əkilmiş 1432 hektar sahənin suvarılması müasir qaydalara uyğun olaraq, pivot və damcı üsulu ilə həyata keçirilir. “Agro Dairy” və “Agro Fresh” MMC-də 14 min hektar sahəyə şum çıxarılmış və hazırda səpin işləri aparılır. Əraziyə işıq, qaz və su xətlərinin çəkilməsi layihələndirilir. Meysəri kəndinin ərazisində fəaliyyət göstərən “Şirvan Şərabları” müəssisəsi tərəfindən inzibati binanın, şərab emalı zavodunun, hazır məhsul üçün nəzərdə tutulan anbarın və iaşə obyektinin tikintisi işləri ötən dövr ərzində davam etdirilmişdir. Ərazidə 3000 başlıq maldarlıq kompleksinin tikintisi də nəzərdə tutulmuşdur. “Sobsan” boyaları müəssisəsi tərəfindən 74 hektar sahədə üzüm bağı salınmış, “Avromed” şirkətinə regional baza yaratmaq üçün sərəncam verilmişdir.

Hazırda rayonda üzümçülüyün inkişafına xüsusi diqqət göstərilir. Bu baxımdan dövlətimizin başçısının tapşırığı ilə hazırlanan və qəbul edilən “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”nın sahənin yenidən dirçəldilməsində mühüm rolu olmuşdur. Hazırda rayonumuzda üzümçülük yeni inkişaf dövrünü yaşayır. Fermerlərimiz tərəfindən ötən müddət ərzində yeni üzümlüklər salınaraq bu gəlirli sahə 1650 hektara çatdırılmışdır. Bundan əlavə, Meysəri kəndinin ərazisində yerləşən “Şirvan Şərabları” müəssisəsində 121,5 hektar yeni üzüm bağı, 40 hektar isə yeni meyvə bağı salınmışdır. Hazırda həmin müəssisədə üzüm və meyvə bağlarının əkini davam etdirilir.

Heyvandarlıq da rayon iqtisadiyyatında aparıcı sahələrdən birini təşkil edir. Bu ilin doqquz ayında rayonda iribuynuzlu mal-qaranın sayı artaraq 38156 başa, xırdabuynuzlu heyvanların sayı 183841 başa, quşların sayı isə 283670 başa çatdırılmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur. Bu dövrdə ət istehsalı 3705,2 ton, süd istehsalı 16686,2 ton, yumurta istehsalı 9903 min ədədə çatdırılmışdır ki, bu da ötən ilin müvafiq ayları ilə müqayisədə xeyli artmışdır. Arı ailələrinin sayı isə 6780-ə çatdırılmışdır.



Cari ilin doqquz ayında tarixi şəhər olan Şamaxının abadlaşdırılması və yenidən qurulması, sosial problemlərin həll edilməsi uğurla davam etdirilmişdir.

Şəhərin mərkəzində yerləşən 20 Yanvar parkının yenidən qurulması və əsaslı təmir işləri yarımillik ərzində başa çatmışdır. Parkda yeni layihəyə əsasən piyada səkiləri döşənmiş, yeni sanitar qovşağı inşa edilmiş, 3300 kv.metr ərazidə yaşıllıq salınmış və parkın ərazisində yerləşən ağaclar budanmışdır. Hazırda parkda tikinti və abadlıq işləri yekunlaşmışdır. Bundan əlavə, 4 saylı 100 yerlik körpələr evi-uşaq bağçası artıq istifadəyə verilməyə hazırdır. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 36 mənzilli yaşayış binasının tamamlanma işləri görülür. Şəhərin H.Əliyev, S.Ə.Şirvani, Gənclər və Şirvan küçələrində yerləşən 8 çoxmənzilli yaşayış binasında təmir işləri aparılmışdır. Şəhərin Ağsu istiqamətinə çıxışında abadlıq və tikinti işləri davam etdirilir. Həmin ərazidə 1200 metr məsafədə piyada səkisi salınmış və 10 min kv.metr-dən artıq asfalt-beton örtüyü salınmışdır. Həmin dövrdə şəhərin müxtəlif küçələrinə və şəhər qəbiristanlığına gedən yola 30 min kv.metrdən artıq asfalt-beton örtüyü vurulmuşdur. Rayonun Əngəxaran, Çuxuryurd və Nağaraxana kəndlərinin mərkəzi küçələrində ötən ildən başlanmış tikinti və abadlıq işləri davam etdirilmişdir. Küçə boyu barılar üzlənmiş, dəmir barmaqlıqlar quraşdırılmış, piyadalar üçün yeni səkilər salınmış, evlərin və inzibati binaların fasad hissələri rənglənmiş və dam örtükləri yenisi ilə əvəz edilmişdir. Yeni işıqlandırma dirəkləri quraşdırılmışdır. Hazırda Çuxuryurd və Nağaraxana kəndlərinin mərkəzi küçələrində abadlıq işləri başa çatmışdır. Rayonun ən qədim kəndlərindən biri olan Dəmirçi kəndində turizmin inkişafı məqsədi ilə çox böyük quruculuq, abadlıq və yenidənqurma işləri həyata keçirilmişdir. Belə ki, kəndin giriş hissəsində 10 metr hündürlüyü olan rəmzi qala və kəndin çayla sərhədində hasarın, miskərlik və dəmirçi emalatxanasının, çayxana və yay çayxanasının, iki ədəd təndirxananın, suvenir mağazasının və məscidin tikintisi də başa çatdırılmışdır. Bundan əlavə, kəndin mərkəzi küçəsində 500 kv.metr əraziyə çay daşı döşənmiş, evlərin dam örtükləri dəyişdirilmiş və küçə boyu sakinlərin hasar və təndirxanaları təmir edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Göylər-Quşçu avtomobil yolunun əsaslı təmiri və yenidən qurulması üçün “Azəravtoyol” ASC-yə 3,9 milyon vəsait ayrılmışdır. Hazırda adıçəkilən yolun 11 km asfalt-beton örtüyü vurulub başa çatdırılmışdır. Evlərin və inzibati binaların fasad hissələri rənglənmiş və müəyyən hissədə dam örtükləri yenisi ilə əvəz edilmişdir. Yeni işıqlandırma dirəkləri quraşdırılmışdır. Rayonun 53 km-lik Şamaxı-Çöl Göylər-Padar avtomobil yolu sakinlərin istifadəsinə verilmişdir. Bundan əlavə, Pirquludan Dəmirçi kəndinə gedən avtomobil yolunda təmir işləri başa çatmışdır. Kəndin qarşısından keçən Pirsaat çayının üzərində körpünün tikintisi başa çatdırılaraq əhalinin istifadəsinə verilmişdir. Turizmin inkişafı məqsədi ilə rayon icra hakimiyyətinin sifarişi ilə rayonun Dəmirçi kəndindən İsmayıllı rayonunun Lahıc kəndinə yeni 22 km-lik avtomobil yolunun tikintisi davam etdirilmişdir. Hazırda yolun tikintisi sürətlə davam etdirilir. 3,3 km məsafəsi olan rayonun Çarhan-Adnalı yolu ötən müddət ərzində əsaslı təmir edilmişdir. Adıçəkilən yola 20300 kv.metr asfalt-beton örtüyü verilmişdir.

2017-ci ilin doqquz ayı ərzində Bakı-Şamaxı-Yevlax və Şamaxı-Çuxuryurd-Qızmeydan avtomobil yollarında intensiv yağan yağışlar nəticəsində torpaq sürüşmələri baş vermiş və nəticədə avtomobil nəqliyyatının hərəkəti üçün təhlükə yaranmışdır. Sürüşmə nəticəsində yaranmış torpaq kütləsi həmin ərazilərdən kənara daşınaraq avtonəqliyyatın hərəkəti bərpa edilmişdir. Bundan əlavə, rayonun Çuxuryurd-Qaleybuqurd, Çuxuryurd-Ərçiman və Cuxuryurd-Talışnuru istiqamətində intensiv yağan yağışlar nəticəsində yaranmış fəsadlar aradan qaldırılmışdır.

Şamaxı rayonu istər tarixi keçmişi, istərsə də coğrafi şəraiti baxımından turizm üçün olduqca əlverişli bir zonadır. Məhz buna görə də rayona gələn turistlərin və istirahət mərkəzlərinin sayı ilbəil artır. Hazırda Pirqulu zonasında müasir standartlara cavab verəcək yeni turizm obyektlərinin tikintisi davam etdirilir.

2017-ci ilin əvvəllərindən başlayaraq tikinti-quruculuq işləri ilə yanaşı, təmizlik və yaşıllaşdırma işlərinin genişləndirilməsi də xüsusi diqqət mərkəzində saxlanılmışdır. Bununla bağlı rayonun idarə və müəssisələrinin iştirakı ilə kütləvi iməciliklər keçirilmiş, geniş yaşıllaşdırma tədbirləri icra olunmuşdur. İməciliklər zamanı Bakı-Yevlax magistral yolunun rayon ərazisindən keçən hissəsində, həmçinin Şamaxı şəhərinin müxtəlif yerlərində 1,5 min ədəddən çox ağac və gül kolları əkilmişdir. Hazırda həmin yaşıllıqlara lazımi qaydada aqrotexniki qulluğun göstərilməsi işləri davam etdirilir.

2017-ci ilin doqquz ayında rayon ərazisində yeni qazlaşma, təmir-bərpa və əsaslı təmir işləri davam etdirilmişdir. Dəmirçi kəndi qazlaşdırılmışdır. Hazırda abonentlərin ünvanlarına sayğacların quraşdırılma işləri başa çatmışdır. Ötən müddət ərzində 196 ədəd sayğac yenisi ilə əvəz edilmiş, 67 ədəd sayğacın yeri dəyişdirilmiş, Şamaxı XS və “Təmiz qaz” tərəfindən aşkar olunmuş 2196 ədəd qaz sızmalarının qarşısı alınmışdır. Debitor borcunu ödəməyən 406 abonentin ünvanındakı xəttə təbii qazın verilişi dayandırılmış, bunlardan 323 abonentin xəttinə qazın verilişi bərpa edilmişdir.

2017-ci ilin doqquz ayı ərzində rayonda “Azərişıq” və Şamaxı Elektrik Şəbəkəsinin balansında olan 10/04 kv-luq müxtəlif güclü yeni transformatorlar quraşdırılmışdır. Həmin transformatorlardan çıxan 0,4 kv-luq hava xətlərində 1828 ədəd istismara yararsız dayaq və 78,5 km. naqil SİP kabellə əvəz edilmişdir. Köhnə 0,4 kv-luq hava xətləri dəmir dayaqlarla və Sip kabellə əvəz edilmişdir.

Rayon əhalisinin keyfiyyətli rabitə xidməti ilə təmin etmək üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Şəhər ərazisində yararsız dirəklər yenisi ilə əvəz edilmiş, sallaq kabellər tənzimlənmiş, kabel-kanalizasiya quyuları qrunt sularından təmizlənmiş və kabellərin texniki parametrləri normaya gətirilmişdir.

Ötən müddət ərzində əhaliyə göstərilmiş poçt xidmətlərinin keyfiyyəti xeyli yüksəlmişdir. Bütün kommunal xərclərinin ödənilməsi, respublika daxilində pul qəbulu və xaricə pul göndərilməsi müəssisə tərəfindən uğurla həyata keçirilmişdir. Müəssisədə doqquz aylıq plan yerinə yetirilərək 102% əməl olunmuşdur.

Şəhərin su təchizatının və kanalizasiya sisteminin yenidən qurulması işləri davam etdirilmişdir. Ötən doqquz ay ərzində şəhərdaxili şəbəkə xətlərində təmir işləri aparılmışdır. Bundan əlavə, 1 və 3 saylı su anbarları istifadəyə verilmiş və bunun nəticəsində şəhərdə 5000 abonentin ünvanına sayğaclar quraşdırılaraq içməli su ilə təmin edilmişlər. Şəhərin Dədə Qorqud yaşayış massivində kanalizasiya nasos stansiyası və rayonun Çarhan kəndinə gedən istiqamətdə Çirkab suların təmizləyici qurğular kompleksinin tikintisi başa çatdırılmışdır. Daxili kanalizasiya xətlərində baxış quyuları təmizlənmiş, müxtəlif diametrli kanalizasiya xətlərində təmir işləri aparılmışdır. Rayonun Avaxıl kəndinin ərazisində yerləşən Qırxbulaq və Saqiyan kəndindəki su xətlərində təmir işləri aparılaraq sayğac quraşdırılmışdır. 2018-ci ildə şəhərin su təchizatını yaxşılaşdırmaq məqsədilə ölkə rəhbərinin sərəncamına uyğun olaraq Çağan su mənbəsində D=530 mm-lik boru ilə Şamaxı şəhərinə su çəkilişi nəzərdə tutulmuşdur.




2017-ci ilin 9 ayı ərzində rayonda böyük şəbəkəyə malik olan təhsil, səhiyyə və mədəniyyət sahələrində də həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bir çox işlər görülmüşdür.

Respublikanın bütün regionlarında olduğu kimi, Şamaxının təhsil infrastrukturu ilə bağlı məsələlər ölkənin inkişaf tempinin tələblərinə cavab verən keyfiyyətin artırılması, təhsilin məzmununun yenilənməsi, müəllimlərin peşəkarlığının yüksəlməsi ilə birgə həyata keçirilir.

Rayonda 71 ümumtəhsil məktəbi, o cümlədən 51 tam orta, 17 ümumi orta, 3 ibtidai, 22 məktəbəqədər tərbiyə, 4 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Ümumilikdə rayonun ümumtəhsil məktəblərində 12535 şagird təhsilə cəlb edilmişdir.

Ölkə rəhbərinin diqqət və qayğısı sayəsində hesabat dövründə rayonun Məlcək kənd 80 şagird yerlik ümumi orta məktəbi istifadəyə verilmiş, 80 şagird yerlik Nağaraxana kənd, 132 şagird yerlik Meysəri kənd tam orta və 40 şagird yerlik şəhər 8 saylı ibtidai məktəblərinin tikintisinə başlanılmış və hazırda son tamamlanma işləri aparılır.

Şamaxıda əhaliyə 131 çarpayılıq Rayon Mərkəzi Xəstəxanası, 15 çarpayılıq Göylər kənd sahə xəstəxanası, 14 kənd həkim məntəqəsi, 20 tibb məntəqəsi və Diaqnostika Mərkəzində 139 nəfər həkim, 329 nəfər orta tibb işçisi xidmət göstərir.

Cənab Prezidentin tapşırığına uyğun, bütün respublikada olduğu kimi, rayonumuzda da fevral ayının 15-dən may ayının 15-nə kimi əhalinin pulsuz tibbi müayinəsi aksiyası keçirilmişdir. Belə ki, rayonumuzda mövcud olan 18 yaşdan yuxarı olan 70414 nəfər əhalidən 66944 nəfəri kütləvi dispanser müayinəsinə cəlb edilmişdir. Bunlardan 510 nəfəri stasionar, 6169 nəfəri ambulator, 279 nəfəri isə sonrakı müalicə üçün Bakı şəhərinin müxtəlif profilli xəstəxanalarına göndərilmişdir. Bu müddət ərzində cərrahi əməliyyatların sayı 356 olmuşdur.

Qədim tarixə, füsunkar təbiətə, əlverişli iqlim şəraitinə malik, özünəməxsus adət ənənələri, milli mətbəxi ilə məşhur olan Şamaxı bütün fəsillərdə yerli və xarici turistləri özünə cəlb edir.

Hazırda Şamaxı rayonunun ərazisində üç beş ulduzlu otel, 22 istirahət-turist mərkəzi mövcuddur. 2017-ci ilin 9 ayı ərzində Şamaxıya 103496 nəfər turist gəlmişdir ki, onun da 35395 nəfəri xarici turistlər olmuşdur.

Şamaxı rayon gənclər və idman idarəsi, ölkədə gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin məlum fərmanları ilə təsdiq edilmiş “Dövlət Gənclər Siyasəti” Qanununun, həmçinin Bədən tərbiyəsi və idman sahəsində nəzərdə tutulan hüquqi normativ sənədlərin tələbləri çərçivəsində öz işini qurmuş və 2017-ci il üçün təsdiq olunmuş perspektiv iş planına uyğun olaraq, istər gənclər, istərsə də bədən tərbiyəsi və idman sahələrində 9 ay ərzində çox işlər görmüşdür.

Rayonda müntəzəm olaraq əhalinin müxtəlif təbəqələri, eləcə də kənd və qəsəbə sakinləri ilə görüşlərimiz, həmin görüşlər zamanı qaldırılmış problemlərin əksər hissəsinin yerində həll edilməsi əhali tərəfindən razılıq hissi ilə qarşılanmışdır. Ötən müddət ərzində rayonun 34 kəndində rayon icra hakimiyyətinin başçısı ilə keçirilmiş görüş-qəbullarda 1825 nəfərdən artıq əhali iştirak etmişdir. Bundan əlavə, kəndlərdə elektrik verilişinin fasiləsiz verilməsinə RİH tərəfindən monitorinqlər aparılaraq müntəzəm olaraq nəzarətdə saxlanmışdır.

Bu gün Şamaxıda həyata keçirilən genişmiqyaslı yenidənqurma, müasirləşmə hər bir Şamaxı sakinində sabaha inamı daha da artırır, onların göstərilən dövlət qayğısına əməli fəaliyyətlərilə cavab vermələrinə stimul yaradır.

**İlham PƏNAHOV,**
**“Respublika”.**






